**Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi-professoru, Əməkdar elm xadimi, REA-nın akademiki, "Şöhrət" ordenli, Prezident təqaüdçüsü Vaqif Şadlinskinin bu günlərdə 85 yaşı tamam olur.**



# Ömrünün 55 ildən çoxunu tibbə həsr edən alim

Vaqif Şadlinski 24 yanvar 1940-cı ildə Qərbi Azərbaycanın Vedibasar mahalında Şadlinskilər nəsilində - Bilas Şadlinskinin ailəsində dünyaya göz açmışdır. Çoxuşaqlı ailədə böyüyən Vaqif 8 yaşında ikən, 1948-ci ildə ailə üzvləri ilə birlikdə Qərbi Azərbaycanın Vedi rayonundan, doğma el-obalarından ağır şəraitdə deportasiya olunaraq Azərbaycanda Şəmkir rayonunun Çinarlı (keçmiş Leninkənd) qəsəbəsində məskunlaşmışdır. O, 1959-cu ildə qəsəbədəki beynəlmiləl orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra hərbi xidmətdə olmuşdur. 1963-1968-ci illərdə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Stomatologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Tələbəlik illərindən yaxından tanıdığım Vaqif Şadlinski həmişə institutun ictimai işlərində fəallığı ilə diqqət çəkmiş, mədəni-kütləvi tədbirlərin təşkilatçısı və iştirakçısı olmuşdur. O, 1964-cü ildə institutun 3 saylı tələbə yataqxanası üzrə Tələbə şurasının sədri, 1965-ci ildə ATİ Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, 1967-ci ildə institut partiya komitəsinin büro üzvü, Respublika Tibb İşçiləri Həmkarlar Komitəsinin plenum üzvü, habelə ÜHİK-in X qurultayına nümayəndə seçilmişdi.

Vaqif Şadlinski institutu bitirdikdən sonra ATİ böyük Elmi Şurasının qərarı ilə Terapevtik stomatologiya kafedrasında baş laborant olaraq əmək fəaliyyətinə başlamışdır. 1970-ci ildə ATİ-nin İnsan anatomiyası kafedrasına baş laborant vəzifəsinə keçirilmiş, az sonra kafedranın assistenti seçilmişdir. Həmin vaxtdan taleyini bu kafedra ilə bağlayan V.Şadlinski assistent vəzifəsindən kafedra müdiri, professor vəzifəsinə qədər yüksəlmiş, Əməkdar elm xadimi adına layiq görülmüşdür. Beynəlxalq əhəmiyyətli elmi-pedaqoji nailiyyətlərə görə Rusiya Elmlər Akademiyasının akademiki seçilmişdir.

Vaqif Şadlinski böyük zəhmət hesabına tədqiq etdiyi "Gözyuvasıaltı və aşağı alveol sinirlərinin topoqrafiyası və kötükdaxili quruluşu" mövzusunda 1982-ci ildə namizədlik, 1999-cu ildə isə "Normal və zobogen təsir şəraitlərində qalxanabənzər vəzin quruluş və morfofunksional xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

V.Şadlinski 1988-1991-ci illərdə ATU-nin I müalicə-profilaktika fakültəsinin dekan müavini, 1992-1994-cü illərdə institut Həmkarlar İttifaqı Kömitəsinin sədri, 1994-1995-ci illərdə Ümumi işlər üzrə prorektoru, 1996-2001-ci illərdə tədris işləri üzrə prorektoru vəzifələrində çalışmışdır. 1994-2001-ci illərdə V.Şadlinski YAP-ın Azərbaycan Tibb Universiteti üzrə təşkilatın sədri, habelə YAP Nəsimi rayon təşkilatı idarə heyətinin üzvü olmuşdur.

1995-ci ildə V.Şadlinski ATU İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri seçilmişdir. Onun işgüzarlığı və novatorluğu sayəsində mühazirə və təcrübə dərslərinin təchizatı yenilənmiş, tədrisin keyfiyyəti, aparılan elmi işlərin aktuallığı yüksəlmiş, mövcud anatomiya muzeyləri yenidən qurularaq dünya standartları səviyyəsinə qaldırılmışdır. Sevindirici haldır ki, muzey Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ictimai əsaslarla fəaliyyət göstərən rəsmi muzeylər reyestrinə daxil edilmişdir. Eyni zamanda kafedranın uzun illər istifadəsiz qalmış zirzəmisi yüksək səviyyədə təmir edilmiş, bir mühazirə zalı, üç dərs otağı, bir laboratoriya, eksponatların saxlanılması üçün şöbələr təşkil olunmuşdur.

Yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasına böyük əmək sərf edən V.Şadlinski rəhbərlik etdiyi kafedra ilə digər morfoloji fənlər arasında inteqrasiya yaradaraq, nəinki respublikamızda, dünya morfoloqları arasında insan anatomiyasının tarixi ənənələrini yeni elmi tələblər müstəvisində inkişaf etdirən pedaqoq-alim kimi tanınır. O, 1991-ci ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının tibb doktoru, 1997-ci ildə Respublika Ziyalılar Cəmiyyətinin vitse-prezidenti və Ziyalı Universitetinin fəxri doktoru, Qafqaz Xalqları Akademiyasının vitse-prezidenti, 1998-ci ildə Nyu York Akademiyasının üzvü, 1999-cu ildə Beynəlxalq Kadrlar Akademiyasının anatomiya professoru seçilmişdir. 2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Vaqif Şadlinskiyə Əməkdar həkim fəxri adı verilmişdir. 2001-ci ildə Beynəlxalq Morfoloqlar Assosiasiyası Koordinasiya Şurasının üzvü, 2002-ci ildə Avropa Patoloqlar Cəmiyyəti idarə heyətinin üzvü, 2004-cü ildə Rusiya Tibb Elmləri Akademiyasının akademiki, 2008-ci ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının üzvü, 2009-cu ildə Avropa Təbiət Elmləri Akademiyasının akademiki, Türkiyə Respublikası Uluslararası Araşdırmalar Akademiyasının üzvü seçilmiş, habelə həmin akademiyanın qızıl medalına, 2010-cu ildə Azərbaycan Prezidentinin sərəncamı ilə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Tanınmış alim 2014-cü ildə Rusiya Elmlər Akademiyasının akademiki seçilmişdir.

Vaqif Şadlinski 2020-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmiş, 2022-ci ildə isə dövlət başçısının fərdi təqaüdünə layiq görülmüşdür. O, hazırda "Anatom, Histoloq və Embrioloqlar elmi cəmiyyəti" İctimai Birliyinin və Nəsimi rayon Ağsaqqallar Şurasının sədridir. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində öz doğma torpaqlarından zorla qovulmuş köklü Qərbi Azərbaycan əhalisinin hüquqlarının müdafiəsi və həmin ərazilərdəki maddi-mədəni irsin təbliği sahəsində səmərəli fəaliyyətlərinə görə ötən il respublika Prezidentinin fəxri diplomuna layiq görülmüşdür.

Vaqif müəllim xalqına, dövlətinə sədaqətlə xidmət edən insandır. Onun kafedraya rəhbərlik etdiyi dövrlərdə Koreyadan, Türkiyədən, Pakistandan, bir çox MDB ölkələrindən elm xadimləri, o, cümlədən Türkiyənin sabiq səhiyyə naziri Osman Durmuş, Türkiyə Yüksək Öyrətim naziri, respublikamızın keçmiş təhsil nazirləri L.Rəsulova, M.Mərdanov, C.Bayramov, səhiyyə naziri O.Şirəliyev və başqaları İnsan anatomiyası və tibbi terminalogiya kafedrasında olmuş, rəy kitabında Vaqif Şadlinskinin elm və tədrisin inkişafı ilə bağlı gördüyü işləri yüksək qiymətləndirmişlər.

Vaqif müəllim 700-ə yaxın elmi işin, o cümlədən 18 monoqrafiyanın, 46 dərslik və dərs vəsaitinin, 24 tədris metodik vəsaitin, 22 metodik tövsiyənin, 2 səmərələşdirici təklifin, türk dünyasında ilk dəfə çap edilən Anatomiya atlasının. çoxsaylı elmi-kütləvi məqalənin müəllifidir. Onun "Normada strumogen təsirlər zamanı qalxanabənzər vəzin struktur təşkili və morfofunksional xüsusiyyətləri", həmçinin "Həzm və tənəffüs sisteminin kiçik vəzləri" adlı monoqrafiyaları Moskvada çap olunub və morfoloqlar tərəfindən yüksək qiymətləndirilib. 2009-cu ildə alimin 7428 terminindən ibarət (Azərbaycan-türk-ingilis-rus-latın dillərində) monumental "Anatomik terminologiya" kitabı çap edilərək tələbə və müəllimlərin istifadəsinə verilib.

V.Şadlinskinin elmi rəhbərliyi altında 8 elmlər doktoru, 18 fəlsəfə doktoru dissertasiyası müdafiə olunub. Hazırda 3 doktorluq dissertasiyası yekunlaşmaq üzrədir. Vaqif Şadlinskinin vaxtilə tələbəsi olmuş müəllimlərin də, çalışdığı İnsan anatomiyası və tibbi terminologiya kafedrasında hazırda 8 nəfər elmlər doktoru, professor, 9 nəfər tibb üzrə fəlsəfə doktoru, dosent, 9 nəfər tibb üzrə fəlsəfə doktoru, baş müəllim, 5 nəfər tibb üzrə fəlsəfə doktoru, assistent, 3 nəfər assistent, 1 nəfər baş laborant bilik və bacarıqlarını tibb kadrlarının hazırlanmasına sərf edirlər.

Gənclərin inkişafına həmişə dəstək olan Vaqif müəllim növbəti seçki müddətinə iki ildən çox vaxt qalmasına baxmayaraq, 2021-ci ildə öz təkidli xahişi ilə kafedranın məsləhətçi-professoru vəzifəsinə keçirilmiş və onun tövsiyəsi ilə gənc anatom-alim, dosent A. Abdullayev İnsan anatomiyası və tibbi terminologiya kafedrasına müdir seçilmişdir.

Vaqif Şadlinski müəllim ailəsində böyümüşdür. Atası Bilas müəllim dövrünün tanınmış ziyalısı, "Lenin" ordenli Əməkdar müəllim idi. Uzun illər Qərbi Azərbaycanın Vedi rayon məktəblərində müəllim, tədris hissə müdiri və məktəb direktoru işləmişdi. O vaxtlar ermənilərin Qərbi Azərbaycan və Naxçıvanda törətdiyi vəhşiliklərin canlı şahidi, onlara qarşı aparılan mübarizənin fəal iştirakçısı olub. Məhz buna görə də o, 1948-ci il deportasiyasından sonra yaşadığı və müəllim işlədiyi Şəmkir rayonunun Çinarlı qəsəbəsində öz mənzilinin bir otağında erməni daşnaklarının əsassız xülyaları, Azərbaycan torpaqlarına hansı məqsədlə köçürülmələri, ən nəhayət, onların havadarları haqqında təkzibolunmaz faktlara söykənən kitab, jurnal, qəzet, akt, sərəncam, məktub və əlyazmalarla zəngin olan muzey yaratmışdı. Məktəbli gənclər, hətta yaşlı adamlar teztez bu muzeyə gələrdilər. Bilas müəllim onları maraqlandıran suallara izahlı cavab verməklə yeniyetmələrin vətənpərvər və milli ruhda böyümələrinə təsir edərdi.

Belə bir mühitdə böyüyən Vaqif Şadlinski gendən gələn yanğı ilə erməni daşnakların qədim Azərbaycan torpaqlarını işğal etmələri, ölkəmizin ərazisində ikinci bir erməni dövləti yaratmaq xülyaları, habelə xalqımızın tarixi-mədəni irsinin yer üzündən silmək niyyətləri ilə barışmaz mövqedə olmuşdur. İstər universitet daxili yığıncaqlarda, istərsə də beynəlxalq tədbirlərdə çıxışlarında, habelə, dövrü mətbuatda çap olunan məqalə, monoqrafiya və yazdığı kitablarda ermənilərin dediklərinin, yazdıqlarının yalan və uydurma olduğunu tarixi hadisələr və arxiv sənədləri ilə açıqlayırdı.

Fəal vətəndaşlıq mövqeyi ilə seçilən Vaqif müəllim Yeni il və Novruz bayramı ərəfəsində bir qrup ziyalı ilə əsgər səngərlərinə gedib hərbçilərlə görüşmüşdür. Vaxtilə Saatlıda, Beyləqanda, Bərdədə və Goranboyda çadır şəhərciklərində çox ağır şəraitdə məskunlaşan qaçqınlara baş çəkmiş, onlara maddi və mənəvi kömək etmişdir.

V.Şadlinski xalqımızın Ümummilli Lideri Heydər Əliyev ideyalarının pərəstişkarı olmuşdur. Ulu Öndərin Azərbaycanın sosial-iqtisadi inkişafına, təhsilin, səhiyyənin inkişafına dair fərman və sərəncamlarının reallaşması üçün əlindən gələni əsirgəmirdi. 1998-ci ildə keçirilən prezident seçkiləri ərəfəsində təşəbbüs qrupunun tərkibində prezidentin vəkili kimi Azərbaycanın bir sıra rayonlarında, habelə Türkiyədə Ulu Öndərin xalqı, vətəni üçün gördüyü işlər barədə ictimaiyyət qarşısında çıxışlar edib. 85 yaşlı yubilyar bu gün böyük coşqu ilə Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı, 44 günlük Vətən müharibəsində qələbəmizi təmin edən və dünya siyasətçiləri arasında xüsusi yeri olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməyə, vətənimizin bütövlüyü və inkişafı naminə ona dəstək olmağa çalışır.

Ömrünün 55 ildən çoxunu milli tibb kadrlarının hazırlanmasına həsr edən görkəmli alim Rusiyanın elmi təşkilatları ilə səmərəli əməkdaşlığına, morfologiya sahəsində tibb elminin inkişafına verdiyi töhfələrə və yubiley yaşına görə bu günlərdə Rusiya Elmlər Akademiyasının fəxri fərmanı ilə təltif edilmişdir. ATU-nun professor-müəllim heyəti bu xoş xəbər və yubiley yaşı münasibətilə Əməkdar elm xadimi Vaqif Şadlinskini təbrik edir, elmi yaradıcılığında daha böyük nailiyyətlər arzulayır.

***Şöhrət QASIMOV,***
*ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının dosenti*

Azərbaycan.- 2025.- 23 yanvar (№14).- S.10.